**1991-ci ilin oktyabrında Azərbaycan dövlət müstəqilliyini bərpa edərək azadlıq yoluna qədəm qoydu. Lakin müstəqilliyin ilk illəri tarixin ən çətin və gərgin dövrlərindən biri oldu. Xalqımızın milli mənafelərini müdafiə edə biləcək siyasi liderin yoxluğu səbəbindən ölkədə xaosa, siyasi böhran və iqtisadi tənəzzül hökm sürürdü. Azərbaycan ağır sınaqlar qarşısında qalmışdı. Belə bir məqamda xalqın diqqəti ölkənin gələcəyinə ümid bəxş edə biləcək yeni siyasi qüvvəyə yönəldi. Bu tarixi zərurət 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaranması ilə nəticələndi. Azərbaycanın müasir siyasi tarixində mühüm dönüş nöqtəsi olan bu hadisə ölkəni xaosdan inkişaf yoluna yönəldən yeni bir mərhələnin başlanğıcını qoydu. Məhz həmin gün Yeni Azərbaycan Partiyasının (YAP) təməli qoyuldu.**

prinsiplərin inkişafı və iqtisadi islahatlar sahəsində mühüm addımlar atdı. Partiyanın proqramında əks olunan əsas vəzifələr dövlət müstəqilliyinin qorunması, vətəndaşların firavan həyatının təmin edilməsi və hüquqi, dünyəvi dövlət quruculuğunun möhkəmləndirilməsidir.

Tarixin yaddaşına qızıl hərflərlə həkk olunmuş 1993-cü il oktyabrın 3-ü Azərbaycanın siyasi həyatında dönüş nöqtəsi oldu. Heydər Əliyevin prezident seçilməsi ilə Yeni Azərbaycan Partiyasının həyatında yeni mərhələ başladı. Partiya qısa müddətdə xalqın etimadını qazanaraq cəmiyyətin ayrılmaz tərkib hissəsinə çevrildi. Ölkənin siyasi arenasında təsir dairəsini genişləndirən YAP 1995-ci il parlament seçkilərində səs çoxluğu ilə iqtidar partiyası statusunu möhkəmləndirdi. Bu nailiyyətlər partiyanın xalq tərəfindən dəstəklənən əsas güc mərkəzi olduğunu bir daha təsdiqlədi.

Heydər Əliyevin rəhbərliyi ilə YAP milli dövlət quruculuğunun əsas aparıcı qüvvəsinə çevrildi. 1993-cü ildən sonra həyata keçirilən genişmiqyaslı islahatlar Azərbaycanın yeni tarixi mərhələyə qədəm qoymasına şərait yaratdı. Ölkədə vətəndaş müharibəsi təhlükəsi sovuşdu, siyasi sabitlik və iqtisadi tərəqqi mühiti formalaşdı. Vətəndaş cəmiyyəti quruculuğu, azad iqtisadi məkanın yaradılması və sivil siyasi münasibətlərin təşəkkülü məhz Heydər Əliyevin uzaqgörən siyasətinin məhsulu idi. İqtisadi islahatlar, xüsusilə də 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq arenadakı mövqeyini möhkəmləndirdi, ölkəyə xarici sərmayələrin axınına yol açdı. Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" prinsipinə əsaslanan siyasəti nəticəsində ölkə qısa müddətdə iqtisadi yüksəlişə nail oldu. Sosial rifahın yaxşılaşdırılması, sabitliyin təmin edilməsi və demokratik institutların inkişafı YAP-ın əsas nailiyyətlərindən biridir.

1999-cu ilin bələdiyyə seçkiləri YAP-ın yerlərdəki nüfuzunu bir daha nümayiş etdirdi. Hər bir seçki YAP-ın xalq arasında artan etibarını təsdiqlədi. 2000-ci il parlament seçkilərində 124 mandatdan 75-ni qazanan partiya, Azərbaycanın qanunvericilik orqanında güclü mövqeyə sahib oldu. Bununla da YAP ölkənin inkişafında aparıcı rolunu daha da möhkəmləndirdi.

2001-ci ildə YAP-ın II Qurultayında qəbul edilən taleyüklü qərarlar partiyanın gələcək inkişaf strategiyasını müəyyənləşdirdi. Qurultayda cənab İlham Əliyevin sədrin birinci müavini seçilməsi partiyanın liderlik konsepsiyasını gücləndirdi. 2003-cü ildə İlham Əliyevin Prezident seçilməsi isə YAP-ın dövlət idarəetməsindəki aparıcı rolunun sübutu oldu.

Yeni Azərbaycan Partiyası milli-mənəvi dəyərləri qorumaqla yanaşı, onları müasir dünya təcrübəsi ilə zənginləşdirərək Azərbaycanın beynəlxalq arenadakı yerini daha dəqiq müəyyənləşdirdi. YAP-ın təqdim etdiyi sosial dövlət modeli iqtisadi inkişafla sosial rifah arasında vəhdət yaradır.

Ulu öndər Heydər Əliyevin qoyduğu siyasi xətt İlham Əliyev tərəfindən uğurla davam etdirilərək YAP-ın gələcək fəaliyyət istiqamətlərini müəyyən edir. Partiyanın III Qurultayında cənab İlham Əliyevin yekdilliklə sədr seçilməsi ilə partiyanın idarəçilik modelində yeni səhifə açdı. Bu, YAP-ın öz strategiyasını modernləşdirərək müasir tələblərə uyğunlaşdırmaqda nə qədər irəlilədiyini göstərir.




# İNAMDAN GÜCƏ, GÜCDƏN ZƏFƏRƏ

Bu tarix Azərbaycan xalqının milli dirçəliş yolunda atdığı mühüm addımlardan biri oldu. Elə bir dövr idi ki, ölkə müstəqilliyini bərpa etsə də, çətinliklər qarşısında idi. Belə çətin bir şəraitdə Azərbaycanın tanınmış ziyalıları xalqın gələcəyini düşünərək Heydər Əliyevə müraciət etdilər. Bu müraciət "91-lər"in müraciəti kimi tarixə düşdü. Müraciətdə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xahiş olunurdu. Bu çağırışa cavab olaraq, noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Tədbirdə Heydər Əliyev partiyanın Sədri seçildi, YAP-ın Proqram və Nizamnaməsi qəbul edildi.

Heydər Əliyev YAP-ın yaradılmasını tarixi zərurət kimi qiymətləndirirdi: "Yeni Azərbaycan Partiyası zərurətdən yaranıb. Bu partiya xalqın istəyini, milli maraqları təmin etmək üçün mütəşəkkil şəkildə formalaşıb". Heydər Əliyevin rəhbərliyi ilə YAP-ın hakimiyyətə gəlməsi Azərbaycanın siyasi səhnəsində yeni dövrün başlanğıcı oldu. YAP hüquqi dövlət quruculuğu, demokratik

Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində əldə olunan uğurlar xalqın partiyasına çevrilən YAP-ın ölkənin gələcək inkişafında oynadığı mühüm rolu bir daha ortaya qoyur. Partiya daim cəmiyyətə yeni ideyalar təqdim etmək, problemlərin həll yollarını göstərmək və ən mürəkkəb məsələlərdə konkret təkliflər irəli sürməklə öz gücünü nümayiş etdirir.

Yeni Azərbaycan Partiyası 1992-ci ildən bu günə qədər keçdiyi tarixi yolda yalnız siyasi qüvvə kimi deyil, həm də xalqın inkişaf, sabitlik və rifah arzularının gerçəkləşdirilməsində mühüm vasitədir. Heydər Əliyevin müdrik rəhbərliyi ilə başlayan bu yol Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində daha da möhkəmlənmişdir. Azərbaycanın beynəlxalq nüfuzunun artması, sosial-iqtisadi inkişafın dayanıqlılığı və vətəndaş cəmiyyətinin formalaşması Yeni Azərbaycan Partiyasının fəaliyyətinin nəticələridir.

Bu gün YAP-ın tarixi missiyası yalnız ölkəmiz deyil, bütövlükdə region üçün uğur modeli olaraq qəbul olunur. Partiya gələcəkdə də xalqımızın inkişafı, tərəqqisi və rifahı üçün əsas dayaq olaraq qalacaq. 21 noyabr tarixi təkcə Yeni Azərbaycan Partiyasının yarandığı gün deyil, həm də Azərbaycanın parlaq gələcəyinə inamın bərpasının simvoludur.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika .- 2024.- 21 noyabr (№ 256).- S.2.